# *Şəhidin həyat yoldaşı:*
# "Onu hər zaman yanımda hiss edirəm"

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Mahir Cəfərov vətənpərvərliyi, mərdliyi, cəsurluğu ilə seçilirdi. Onun ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi idi. Bu amal üçün hərbçi olan Mahir xidmətini ön xəttə aparıb, 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci il 44 günlük Vətən müharibəsində iştirak edib. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri zamanı Xankəndi şəhəri yaxınlığında şəhidlik zirvəsinə ucalıb.



AZƏRTAC-ın müxbiri Ağcabədinin Sarvanlar kəndində şəhidin valideynləri ilə görüşüb, onlarla qəhrəman Vətən oğlunun həyatı və şərəfli döyüş yolu haqqında söhbət edib.

Atası Alim kişi deyir ki, Mahir həmişə Vətənin bütövlüyünü düşünürdü, çox vətənpərvər idi: "Bu amal uğrunda yolundan dönmədi. Deyirdi ki, torpaqlarımızı tam azad etməyincə hərbi xidmətdən qayıtmayacağam. 2023-cü il sentyabrın 20-də antiterror əməliyyatı zamanı Xankəndi yaxınlığında şəhid olub. Oğul nə üçündür? Vətəni qorumaq üçün. Mənim oğlum da Vətən uğrunda şəhid oldu. Şükür Allaha ki, torpaqlarımız azaddır. Şəhidlərimizin hesabına bu gün başımızı dik tuturuq".

Anası Nuridə xanım Mahirin kəndinə də, ailəsinə də, ata-anasına da bağlı olduğunu bildirir. "On il idi ki, hərbi xidmətdə idi. 44 günlük müharibədə ürəyim rahat idi. Bütün döyüşlərdə iştirak etdi, sağ-salamat da qayıdıb gəldi. Amma birgünlük əməliyyat zamanı çox narahat oldum...", - deyə şəhid anası sözlərini tamamlaya bilmir, gözləri dolur. Mahirin həyat yoldaşı Aytəkin Cəfərova ilə söhbət edirəm. O, Mahirdən fəxrlə danışır. Deyir ki, onun kimi həyat yoldaşı olduğu üçün qürur duyur: "Mahir çox vətənpərvər idi. Ailəsini, Vətənini sevən insan olub. Biz 2013-cü ildə ailə həyatı qurmuşuq. Mən ailə həyatı quranda o hərbçi idi. 44 günlük Vətən müharibəsində mənə dedi ki, biz torpaqlarımızı azad edəcəyik. Çox dualar etdik, sağ-salamat gəldi. Torpaqlarımız azad olunduğu üçün çox sevinirdi. Həmişə deyirdi ki, sizi sevdiyim qədər Vətənimi də sevirəm. Ailəsinə, atasına, anasına çox bağlı idi. Uşaqları da vətənpərvər böyüdürdü, onlara hərbi geyim alırdı".

Qəhrəman Vətən övladı istərdi ki, övladları vətənpərvər böyüsün, ailəsinə, xalqına layiqli övlad kimi yetişsinlər. İndi Aytəkin Cəfərova Mahirin bu arzusunu yerinə yetirir. "Mahir istəyirdi ki, uşaqları onun yolunu davam etdirsin, Vətəni sevsinlər. Deyirdi ki, şəhid olsam, uşaqları adıma layiq, vətənpərvər böyüt. Mən ona verdiyim sözləri tuturam, onunla qürur duyuram. Fəxr edirəm ki, onun həyat yoldaşıyam. Şəhidlik zirvəsi hər kəsə nəsib olmur. Şəhidlər ölmür. Onu hər zaman yanımda hiss edirəm".

Mahir Cəfərov Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

Azərbaycan.- 2025.- 19 sentyabr (№200).- S. 6.